

# *Əhli-Beyt Şairi Vüqar Biləcəri*

**Müstəfa vəsfini qıl, zikri-Əlidən məst ol,**

**Dağıt, ey murği-dil, hicran qəfəsin sərbəst ol.**



**İmam Xomeynini bəxş etdi İranə yaradan.**

**Ruhuna əhli-İran söyləyəcək rəhmət hər an.**

**Neçə illərdi əsarətdə idi mülki-İran,**

**Əhsən ol şəxsə ki, qurdu islamiyyət ölkəsi!**



**Biz şiələrik addımı hər yerdə qürurlu!**

**Allahımızın eşqi ilə qəlbləri nurlu!**

**Çün rəhbərimiz Xamenei vardır üzü nurlu!**

**Siması gözəl rəhbəri-ə’zəm nə gözəldir...**

-1-

Ağa, rəhm eylə, yetiş naleyi-fəryadımıza,

Gəl sürur eylə əta xatiri-naşadımıza.

Rafizi derlər, ağam, rafizilər adımıza,

Fəqət ümmid qalıb sən yetəsən dadımıza,

Ya İmam Məhdi, kərəm qıl, yetiş imdadımıza.

Biri Allahı danıb dinini dünyaya satıb,

Birinin tapdalanıb namusu, qəflətdə yatıb.

Həqq-ədalət gəmisi bəhri-cəhalətdə batıb,

Zülm, ey şahi-kərim, payeyi-ifrata çatıb,

Ya İmam Mehdi, kərəm qıl, yetiş imdadımıza.

Hər qədəm başı yalan, hiylə-kələk, məkr, riya,

Qərq olub zülm ilə aləm, nə bəladır bu bəla.

Yetiş, ey gənci-kərəm, kani-səxa, kani-şüca,

Nə rəva, zalım axı çəkdirə məzluma cəfa,

Ya Imam Mehdi, kərəm qıl, yetiş imdadımıza.

Bürünüb zülmətə aləm, kərəm et, eylə zühur,

Gəl saç ey şəmsi-ədalət, qara zülmətlərə nur.

Alıb ağuşuna dünyanı tamam fisqi fücur,

Gəl qılıncınla riyakarilərin boynunu vur,

Ya Imam Mehdi, kərəm qıl, yetiş imdadımıza.

**-2-**

**Heyif ömürdən ay alıb gedən səfalı dəmlərə,**

**Baxanda bənzər hərfi-mim şəkildə qəddi-xəmlərə.**

**Gözün yumub-açınca dil nişimən oldu qəmlərə,**

**Deyincə xoş gəlib, səfa gətirmisiz sitəmlərə.**

**Salam Hüseynə yazdılar siyahi rəng ələmlərə,**

**Başım fəda məkani-yaridən gələn qədəmlərə.**

**-3-**

**Surəti batini-eşqin görünən mənası,**

**Ruhi-Zəhra güli mərdanələrin mövlası.**

**Mənbəyi-fəzli hünər lütfi-kərəm dəryası,**

**Müshəfi-eşqə atan sidqi-vəfa imzası,**

**Rahi-qəm yolçusu, rindanələrin rüsvası.**

**Üzü mehraba qiyam halı qiyamət qoparan,**

**Ey rükusiylə cahan meylini başdan çıxaran.**

**Zülmətin bağrını xurşidi-zühur nuri yaran,**

**Zeynəbin hali-pərişan saçı bivaxt ağaran.**

**Qan tutan gözləri ismət qəzəbindən yaşaran,**

**Xütbəsiylə Yezidin şənin aradan aparan.**

**-4-**

**Ey hökmü ilə xilqəti icad eləyən şah,**

**Ey mötəbər Allah.**

**Məzlumlara, bikəslərə dərgahi-ümidgah,**

**Hər qəlb(i)dən agah.**

**Ey hökmi-rəvanıyla yoxu var eləyən var,**

**Ey Həzrəti Qəffar.**

**Ey cümlə yaratdıqlarına dəhrdə memar,**

**Qüdrətli sənətkar.**

**Ey fanini baqi eləyən baqini fani,**

**Hər yerdə nişani.**

**Ey ol deyərək xəlq eləyən cümlə cahani,**

**Ərziylə səmanı...**

-5-

Kimə ki, Həzrəti Zəhra qara köynək toxuyar,

O başın sahibi sər-nizədə Quran oxuyar.

Pəri-Cibrilidə ərş üzrə qılan seyranı,

Kərbəla şahı Hüseyndir ki, Xuda heyranı.

Bir zaman görmədi gəhvarədə pərvanə şəmin,

Həyəcanlandı, təlaş etməyi artırdı qəmin.

Dedi Peyğəmbərə dərdin, dedi Peyğəmbər həmin,

O Hüseyndir, bu Hüseyn göylər öpərlər qədəmin.

Cəburət əhli mələk dəstəsi saysan neçə min,

Onu vəsf etməyə qabliyyəti çatmaz qələmin.

**-6-**

**Hüseyn eşqi şərafətdi, Hüseyn eşqi səadətdi,**

**Hüseyn eşqi ədalətdi, Hüseyn eşqi şücaətdi.**

**Hüseyn nuru-hidayətdi, Hüseyn mahi-vəcahətdi,**

**Hüseyn dəryayi-qeyrətdi, Hüseyn xurşidi-izzətdi.**

**Hüseyn gülzari-eşq içrə açılmış laleyi-tərdi,**

**Hüseyn bəhri-vəfa içrə misilsiz dürri-gövhərdi.**

**Hüseyn bu dəhr durduqca bütün üşşaqə sərvərdi,**

**Hüseyn mahi-münəvvərdi, Hüseyn şahi-dilavərdi,**

**Hüseyn mərdi-hünərvərdi, Hüseyn çox şanlı rəhbərdi.**

**Hüseyn xəlqə vəfa dərsin keçən ustadi-ə'zəmdi,**

**Hüseyn məhbubu-həqdi, iftixari-nəsli-adəmdi.**

**Hüseyn Rəbbani keyfiyyətlər ilə zəngin aləmdi,**

**Hüseynsiz baği-cənnət od saçan nari-cəhənnəmdi,**

**Hüseyn pak qəlbə məhrəmdi, Hüseyn min dərdə məlhəmdi.**

**Alar Kərbübəla ətrin könül qəmgin küləklərdən,**

**Hüseynin adı gəldikdə nəva qalxar ürəklərdən.**

**Hüseynçün qanlı göz yaşı axar giryan bəbəklərdən,**

**Hüseynin bir səri-muyi müəzzəmdir fələklərdən,**

**Hüseyn xoşdur çiçəklərdən, Hüseyn pakdır mələklərdən.**

**Hüseyn aydan da nurani, günəşdən də mücəlladı,**

**Hüseyn güldən mütərradı, Hüseyn dürdən müssəfadı.**

**Hüseyn neyçün mübərradı, Hüseyn neyçün müəlladı?!...**

**Ona çün süd verən madər xanımlar şahı Zəhradı,**

**Hüseyn dəryayi təqvadı, Hüseyn qeyrətli mövladı.**

**-7-**

**Ey olan hər iki dünyada vəfa əhlinə şah,**

**Gecə-gündüz sənə heyrətdədi xurşid ilə mah.**

**Asimanı bürümüş nuri-təcəllavü-səbah,**

**O, günəşdirmi məgər pərdeyi-rüxsarın açıb,**

**Ya Əlinin üzüdür, cilveyi-rəbbani saçıb.**

**Qafila, etmə təsəvvür dəli divanələri,**

**Aqil adlandırar aqil vəli divanələri.**

**Tanısın qoy bizi dünya Əli divanələri,**

**Eşqi-Heydər elə atəşdi ki, əsla sönməz,**

**Hər kimin nüftəsi pak olsa, Əlidən dönməz.**

**Ey Vüqar, heç fikrim yoxdu mənim dahi olam,**

**Budu fikrim ağamın çakəri-dərgahi olam.**

**Mən kiməm, mən nə itəm ki, Əli məddahi olam**

**Əlqərəz ki, Əli bir şahdı ki, yerlər-göylər,**

**Eydi-mövluduna şövq ilə mübarək söylər.**

-8-

Ey könül, aldanma dünya bivəfa hökmündədir,

İbtidasından xərab olmuş fəna hökmündədir.

Hansı aşiq ki, şəhidi-tiri-qəmzəndir sənin,

Eşqin hökmüylə Şəhidi-Kərbəla hökmündədir.

Qalxa bir insan əgər hökmi-Əlinin ziddinə,

Nütfəsi napakidir, hökmən gəda hökmündədir.

Sübh üzündən çəkdi zülfün mahım, etdi gün tülu,

Gözlərim açdım, namaz gördüm qəza hökmündədir...

Ol güli-Zəhra Həsən səbri, Hüseyn əzmindədir,

Müstəfa xülqündədir, həm Mürtəza hökmündədir.

İtrəti-Xətmi-Rəsulun həqqin inkar eyləyən,

Ən rəzil varlıqdır, itdən bihəya hökmündədir.

-9-

Nola, Mövla dönüb eşqin səfərindən gəlsin,

Bizə Davudu-Nəbinin xəbərindən gəlsin.

Səslərik biz gecə-gündüzlər o adil şahı,

Vəsfə aciz dayanıb sözlər o adil şahı.

Gözlər həsrətdə qalıb, gözlər o adil şahı,

Zülmü ləğv etməyə dünya üzərindən gəlsin.

Bir Nəbinin adını eyləyirəm ifadə,

Özü versin bizə kövsər bulağından badə.

Elə bir yarə könül bağlamışam dünyadə,

Elə bir yar-ki, gülab ətri-tərindən gəlsin.

Eşq nədir dərk edən aqillərə mən qurban olum,

Ağamın qanı axan çöllərə mən qurban olum.

"Ya Əli" zikri deyən dillərə mən qurban olum,

Ya Əlisiz dilə şahmar zəhərindən gəlsin.

Əliyə layiq olub mötəbər ən zişan taxt,

Əlidən dönmək olar, ay qaragün, ay bədbəxt?!...

Bir igiddir ki, Əli bənzəri olmaz heç vaxt,

Zülfüqarın da inanma kəsərindən gəlsin.

**-10-**

**Bəxş edib zövqi-səfa aləmə mövludi-Əli,**

**Göz açıb dəhrə bu gün mülki-vilayət gözəli.**

**Xaliqə bəndədi, Peyğəmbəri-İslamə Vəli,**

**Ona Allah elə bir rütbeyi-əlanı verib,**

**Ona Peyğəmbər əmanət qızı Zəhranı verib.**

**Mat olub ərzi-səma əhli gözəl surətinə,**

**Olsun izzətlilərin canı fəda izzətinə.**

**Qeyrətin qeyrəti çatmaz Əlinin qeyrətinə,**

**Çün Əlidir kişilik məktəbinin ustadı,**

**Mərifət əhlinə ruhani qidadır adı.**

**Vardı məxsusi bir iz Kəbədə qalmış əbədi,**

**Beytül-həqq etdi qəbul Fatimə binti Əsədi.**

**İzn ilə körpəsini bətnidən azad elədi,**

**Olmayıbdır belə bir hadisə tarixdə hələ,**

**Hansısa ibni-bəşər Kəbədə dünyaya gələ.**

**Əli tək şah hanı ey qafil, ədalətnən de,**

**Əlinin ismini, ey şiə, şərafətnən de.**

**Sorsalar kimdir Əli, susma, şərafətnən de,**

**Dostdur Allahın ən sevgili peyğəmbərinə,**

**Nökər ollam oların nökərinin nökərinə.**

**-11-**

**Şiri-Xudadır ləqəbin, ya Əli,**

**Dağlar aşırdar qəzəbin, ya Əli.**

**Gərdi-rəhin naz eləyər cənnətə,**

**Qeyrətinin ruhu keçib qeyrətə.**

**Afərin Allah bəyənən xilqətə,**

**Ağla günəş heyran o xoş surətə.**

**Gülşəni gülzarı salıb heyrətə,**

**Gül dəhənin, qönçə ləbin, ya Əli.**

**Tək Əli bənzərdi liqaullaha,**

**Nokərəm o sərvəri-şahənşaha.**

**Gah işığı şəmsə verər, gah maha,**

**Rəsmidi gənc üstə gələr əjdaha.**

**Bir teli yerdən baha, göydən baha,**

**Müştərisi aləmə gəlməz daha,**

**Mahiliqa, zöhrəcəbin, ya Əli.**

**Dəhrara min şah ola, sultan ola,**

**Davud ola, Nuh, Süleyman ola.**

**Hüsndə min Yusifi-Kənan ola,**

**Sanma misali-şəhi-Mərdan ola.**

**Yox elə bir kəs sənə şayan ola,**

**Kaş deyirəm cismidə min can ola.**

**Cümləsi bir-bir sənə qurban ola,**

**Alidir əslin, nəsəbin, ya Əli.**

**-12-**

**Göz cəmalından, gözüm nuru, dəmadəm feyz alar,**

**Şəmsi-rəhmətsən, sənin nurundan aləm feyz alar.**

**Cənnəti-hüsnün tamaşasından Adəm feyz alar,**

**Pak ənfasından İsə-bni Məryəm feyz alar.**

**Nuru-safından sənin xəllaqi-əzəm feyz alar.**

**Ey yaranmışlardan əfzəl, ey Rəsuli möhtərəm,**

**İsmi-pakın zikr edər cümlə mələklər dəmbədəm.**

**O mübarək gün ki, dəhrə lütf edib qoydun qədəm,**

**Bir cəmal etdi sənə xəllaqi-dəryadil kərəm.**

**Daşa təsir eylədi feyzi-nigahın, ey sənəm,**

**Göz cəmalından, gözüm nuru, dəmadəm feyz alar.**

**Nura qərq oldu üzün nurundan ərzi-asiman,**

**Yetdi göftari-həyatbəxşin ilə əmvatə can.**

**Sən şəfiəl-müzribinsən, ey Nəbiyi-mehriban,**

**Ey səadət cilvəsi, ey afitabi-cavidan,**

**Şəmsi-rəhmətsən, sənin nurundan aləm feyz alar.**

**-13-**

**Bəlayi-qəmdən hifz qıl Xuda ibadət əhlini,**
**Divanı tut gədalərə, sevindir iffət əhlini.**

**Yolunda can verənlərin şəhadətin qəbul elə,**
**Xuda ibadət əhlinin ibadətin qəbul elə.**
**Ziyarət eyləyənlərin ziyarətin qəbul elə,**
**Hüseynə xatir əfv qıl, bağışla taət əhlini.**

**Fəqirin haqqı tapdanıb, qüruru qırılıb, alçalıb,**
**Ədalət, haqq itib-batıb, bütün cahanı zülm alıb.**
**Bir az da səbr qıl, könül, vüsali-yara az qalıb,**
**İlahi kama çatdırar bütün məhəbbət əhlini.**

**Düzüldü səfbəsəf qoşun, tutuldu rahi-Kərbəla,**
**O dəmdə qalxdı göylərə fəqani-ahi-Kərbəla.**
**Ki, qoydu başın Allahın yolunda Şahi-Kərbəla,**
**Batırdı qəmə büsbütün o gün həqiqət əhlini.**

**Inayət etmiş acizə, fəqirə Xətmül-ənbiya,**
**Füzun edib mürüvvətin, vəfasın ol şəhin Xuda.**
**Gəlibdir İslam əhlinə ağır vəfati-Mustafa,**
**O, sadiq olmuş əhlinə, o sevmiş əlbət əhlini.**

**Tutar cahanı sovti-sur, verərsə əmri-Kirdigar,**

**Əlində Zülfüqar İmam olar qeyibdən aşikar.**

**Bu haqsız hakimiyyətin az ömrü qalmış, ey Vüqar,**

**Sevindirər zühuru-höccət həqq-ədalət əhlini.**

**-14-**

**Nuridən təxmir qılmış süni-aləm tinətin,**

**Sən nə gülsən ki, behişt əhli çəkərlər həsrətin.**

**Səfbəsəf huravu qılmanlar qılarlar xidmətin,**

**Çeşmeyi-kövsər ləbindir, nəxli-tuba qamətin,**

**Cənnəti-hüsnün tamaşasından adəm feyz alar.**

**Dəyməmiş cəddin Xəlilullahə Nəmrudun közü,**

**Möcüzi-Xizri ləbindir abi-heyvan möcüzü.**

**Səndən almışdır nicat peyğəmbəri-Yunis özü,**

**Vadeyi-sinada nurun gördi Musanın gözü,**

**Pak ənfasından İsə-bni Məryəm feyz alar.**

**Ey Vüqari-fəxri-ərş, payi-şərifi izzi-xak,**

**Ey edən bəzmi-təqərrübdə ələxsus iştirak.**

**Ey olan rəşki-cəmalından məlaiklər həlak,**

**Ey şəbi-Meracidə həmsöhbəti-xəllaqi-pak,**

**Nuri-safından sənin xəllaqi-əzəm feyz alar.**

**-15-**

**Xaliqi feyziyab edər**

**"Ya Əli, Ya Əli" səsi.**

**Zikri-cənabi-Cəbrəil**

**Zikrilərin səfalısi.**

**Eşqi-Əlidə ol fəna,**

**Hubbi-Əlidən al səfa.**

**Olma hər eşqə mübtəla,**

**Hər gözəlin həvalısi.**

**Hatəmi el məsəl çəkər.**

**Əhli-səxavətin gözü**

**Açsa kərəm xəzinəsin,**

**Yox Əlidən səxalısi.**

**Aləmi-eşqə cürbəcür**

**Aşiqi-canfəda gəlib.**

**Dəşti-bəladə yox, Vüqar,**

**Sən kimi baş bəlalısi...**

**-16-**

**Həzrəti Xətmi-Rəsulun bu, viladət günüdü,**

**Əvvəla zikr eləyək şəninə qərra salavat.**

**Bu bütün ümmətin, əslində, səadət günüdü,**

**Bir də zikr et o böyük zatə mübərra salavat.**

**Bu günü şövq ilə bayram eləyir eşq əhli,**

**Ki, bu dünya üzünə Həzrəti Əkrəm gəldi.**

**Sildi mövludu-şərifilə cahandan cəhli,**

**Xəlqi islah eləyən müslihi-aləm gəldi.**

**Elə bir şəmsi-səadət doğulubdur ki, bu gün,**

**Üzünün nuruna göylərdə mələklər heyran.**

**Ləblərindən utanar qönçələr ağzında düyün,**

**Güli-rüxsarına gülşəndə çiçəklər heyran.**

**Onu təyin eləmiş aləmə xaliq rəhbər,**

**Bəşəriyyatın ədalətli hidayətçisidi.**

**O Məhəmməddi ki, aləmlərə rəhmət gəlmiş,**

**Ümmətin ərseyi-məşhərdə şəfaətçisidi.**

**-17-**

**Ya Əli, mən göz açandan səni mövla bildim,**

**Tək səni mərtəbeyi-eşqdə əla bildim.**

**Mən kiməm ki, sənin haqqında söz icad eləyim,**

**Feyzi-nitqindir edən nitqimi guya bildim.**

**Sənə kim versə könül, verməz o, dünyaya könül,**

**Mənə dünya nə gərəkdir, səni dünya bildim.**

**Nuri-həq vəchi-şərifində təcəlla eləmiş,**

**Sən qərar eylədiyin hər yeri sina bildim.**

**Nola, bir qətrə mənə lütf edəsən vəsl meyin,**

**Səni, ey saqiyi-pir, lütfdə dərya bildim.**

**İntiha payəsisən mərtəbeyi-irfanın,**

**Səni dəryayi-elm, mənbeyi-təqva bildim.**

**Ya Əli, yumdu Vüqar cümlə gözəlliklərə göz,**

**O zamandan ki, səni yari-dilara bildim.**

**-18-**

**Zülfi-nigari yel dağıdar şanədən çıxar,**

**Eşq əhli ətrin almaq üçün xanədən çıxar.**

**Derlər camalı-Əhmədə bənzərdi surətin,**

**Məna verənlər olmasa, məna nədən çıxar.**

**Pərvanə yaxdı balu-pərin nari-hicridə,**

**Şəm onda bildim heyfini pərvanədən çıxar.**

**Ey yar, xatirimdə mükərrəmdi xatirin,**

**Biganəlik əlaməti biganədən çıxar.**

**Göstər üzün, könül quşu qoşsun təranələr,**

**Bülbül bahar gələndə uçub lanədən çıxar.**

**Ağ dişlərin sədəfdi nizam ilə səfbəsəf,**

**O şə’şəə nə inci, nə dürdanədən çıxar.**

**Ey saliki-təriqi-vəfa, bir zaman gələr,**

**Asudəlik xəzinəsi viranədən çıxar.**

**Canım fədadı canına, ey canımın canı,**

**Can almaq hökmü sən kimi cananədən çıxar.**

**Şah şahlığıyla fəxr eləyib, qürrələnməsin,**

**Bir gün gələr cənazəsi kaşanədən çıxar.**

**Hüsnündə şəms cilvəsi, şahlıq vüqarı var,**

**Şahi-zəmanə sən kimi şahanədən çıxar.**

**-19-**

**Gəldi yenə əyyami-əza, mahi-məhərrəm,**

**Ey şahi-bəla, ey şərəfi-zümreyi-adəm.**

**Göylərdə mələklər də tutarlar sənə matəm,**

**Ərş üzrə asıblar qara matəm ələmindən.**

**Get şükrü-Xuda qıl, tanıyırsansa Hüseyni,**

**Min həmdü-səna qıl, tanıyırsansa Hüseyni.**

**Et səcdə, dua qıl, tanıyırsansa Hüseyni,**

**Get öp ananın pak, mübarək qədəmindən.**

**Xəlq eylədi nurdan böyük Allahım Hüseyni,**

**Mən bilmişəm üqbadə ümidgahım Hüseyni.**

**Hər kim ki gözəl mədh eləyər şahım Hüseyni,**

**Məhşərdə mələklər şahı öpsün qələmindən.**

**Ey süflə fələk, sən elədin min qəmi peyda,**

**Səndən nə cəfa çəkdi cigər-guşeyi-Zəhra.**

**Ey körpə Rüqəyyanı salan çöllərə tənha,**

**Ey Zeynəbi bimar eləyən hicri-qəmindən.**

**Ey sərvərim, ey saqiyi-meyxaneyi-vəhdət,**

**Sənsən bizim ümmid yerimiz ruzi-qiyamət.**

**Lütf eylə bu ləb təşnələrə cami-şəfaət,**

**Bir damla əta et bizə dərya kərəmindən.**

**-20-**

**Məninçin, ey mənim dünyam, bu dünya yoxdu, sən varsan.**

**Baxıb dəryaya daldım, gözlərin fikriylə məst oldum,**
**Elə bildim bir anlıq mavi dərya yoxdu, sən varsan.**

**Yalan sözdür, deyirlər yoxdur əsrin Leyli Məcnunu,**
**O Məcnun getdi mən gəldim, o Leyla yoxdu, sən varsan.**

**Sənin həqqin yanında öz yerin var, ya Vəliyullah,**
**O yer məxsusi yerdi, orda Zəhra yoxdu, sən varsan.**

**Sən həqsən, varlığın həqdir, odur fərq etməz, insanın**
**O mütləq varlığa imanı var, ya yoxdu, sən varsan.**

**Sənin şənində gəlmiş qul huvəllahu əhəd, ey şah,**
**Bu, bir ani sübutdur, səndən əla yoxdu, sən varsan.**

**Sən öylə alisən ki, surətin mənadan əfzəldi,**
**Nə məna, neynirəm mənanı, məna yoxdu, sən varsan.**

**Mənim ömrüm, günüm, ruhum, həyatım, varlığım sənsən,**
**Mənim könlümdə bir özgə təmənna yoxdu, sən varsan.**

**Edən cəzb əhli-eşqi cəzbeyi-eşqindi səhraya,**

**Həqiqi aşiqin qəsdində səhra yoxdu, sən varsan.**

**Gözəllərdən bu gün sənsən gözəllik mülkünün şahı,**

**Dəxi qəm çəkməsin Yusif, Züleyxa yoxdu, sən varsan.**

**-21-**

**Naz edər ətri-behiştə telin ətriylə küləklər,**

**Sənə təzim eləyərlər rükü halında fələklər.**

**Qədəmin dəydiyi yerdən öpər ən ali mələklər,**

**Sənə ərbabi-vəfanın böyük ustadı deyərlər,**

**Sənə məzlumların, acizlərin imdadı deyərlər.**

**Beşiyi Kəbeyi-əqdəs, özü bir zati-müqəddəs,**

**Nə çox isbati-müşəxxəs o əzizlərçün əziz kəs.**

**Ona dünya evi məhbəs, səsi haqqa çağıran səs,**

**Desələr adı nədir bəs, Əlidir adı deyərlər,**

**Ona qeyrətli Rəsulun kişi damadı deyərlər.**

**Sübh edərsən günü heyran, gecələr mahi-muniri,**

**Gözünün sədqəsi ahu, saçının müşk əsiri.**

**Sənə şəhzadələrin sərvəri, sultani, əmiri,**

**Mənə aşiqlərin ən xatiri-naşadi deyərlər,**

**Desələr Məcnuna tay, mən evi bərbadi, deyərlər.**

**Nə cavanlıq yaşadım mən, elə gənclikdə qocaldım,**

**Səni gündən xəbər aldım, səni aydan xəbər aldım.**

**Sinəm üstən neçə qəm dağı qopardıb yerə saldım,**

**Mənə də indiki əsrin yeni Fərhadı deyərlər,**

**Buna nakam qalan eşqin acı fəryadı deyərlər.**

**-22-**

**Odur karvani-eşqin sarivani,**

**Nəhayətsiz fəzilət karivani.**

**Odur ehya qılan qanıyla dini,**

**Odur Xətmi-Rəsulun canişini.**

**Odur cənnətdə eşq əhlinə saqi,**

**Bular ondan könüllər feyzi-baqi.**

**Odur dəryayi-nurun dürri-paki,**

**Odur ləl eyləyən hökmiylə xaki.**

**Odur bürci-vəcahətdən doğan mah,**

**Odur ən möhtərəm, ən möhtəşəm şah.**

**Odur saillərin ümmidgahı,**

**Odur cümlə cahanın qibləgahı.**

**Ona eşq əhli derlər misli-Kə'bə,**

**Odur aşiqlər üçün səsli Kə'bə.**

**Bu, ya Rəbbim, nə hikmətdir, nə sirdir,**

**Onun ismi sənin isminlə birdir...**

**-23-**

**Səadət axtarar baqi, şərabi-vəsl müştaqi,**

**Gəl, Allah saxlamış, saqi, könüllər qan olan vaxtı.**

**Həbibim, göz yaşım axdı, ölümcül dalğalar qalxdı,**

**Amandır, çox yaxın gəlmə, dəniz tufan olan vaxtı.**

**Edəydi kaş Xuda ehsan, mənə bir can deyil, min can,**

**Edəydim dalbadal qurban sənə qurban olan vaxtı.**

**Deyirlər sonrakı peşman-çılıqdan bir xeyir gəlməz,**

**Nədamət barmağın hey diş-lə, cism üryan olan vaxtı.**

**Hənüz Adəm vücuda gəl-məmişdi mülki-xilqətdə**

**Əmirəl-möminin Heydər bizə sultan olan vaxtı.**

**Buludtək keçdi fürsətlər, nə güllər xar olub getdi,**

**Təəssüf, bilmədik qədrin bizim dövran olan vaxtı.**

**Nə bir yad eyləyən gördüm, nə imdad eyləyən gördüm,**

**Gözüm giryan olan vaxtı, könül viran olan vaxtı.**

**Gözün süzdü, canım üzdü, sinəmdə oxların düzdü,**

**Gözüm yollarda qaldı, gəl-mədi imkan olan vaxtı.**

**-24-**

**Sən bu gözəllikdə gözəllik göyünün mahisən,**

**Şiyələrin ruzi-qiyamətdə ümidgahisən.**

**Başımızın tacı, könül mülkümüzün şahisən,**

**Baş qoyanıq biz, hara sən qoysan ayaq, ya Əli.**

**Sənsən ədalətdə ədalətlilərin rəhbəri,**

**Şiri-Xuda, cümlə şücaətlilərin rəhbəri.**

**Həm əl-açıqlıqda səxavətlilərin rəhbəri,**

**Kimsəsizə, bikəsə, məzluma dayaq, ya Əli.**

**İzzətə ləbbeyk! deyib, yox! demişik zillətə,**

**Biz səni, şahım, tanıdıqca gəlirik heyrətə.**

**Sənsən ədalət günəşi şölə saçan zülmətə,**

**Aşiqə nurundu qaranlıqda çıraq, ya Əli.**

**Bəxtəvər ol kəsdi ki, şahım, sənə zəvvar ola,**

**Sən ona lütf eyliyəsən, qəlbi fərəhnən dola.**

**Şəhri-Nəcəf səmtinə-karvanla düşərdim yola,**

**Mən də olardım kaş o dərgaha qonaq, ya Əli.**

**-25-**

**Nə atan misli qəvi şiri-dilavər yoxdur,**

**Nə anantək sədəfi-eşqidə gövhər yoxdur.**

**Nə bəradərlərin izzətdə bəradər yoxdur,**

**Nə üzün nuruna tən mahi-münəvvər yoxdur.**

**Nə qədi-sərvinə tən, sərvi-sənubər yoxdur,**

**Sənə xatunlar arasında bərabər yoxdur.**

**Mürtəza zinəti sənsən, sənə bənzər yoxdur,**

**Sanmayın cilvələnən mahi-cahardəh şəbdir,**

**O, Əlinin qızı, qeyrətli Xanım Zeynəbdir.**

**-26-**

**Əli kimdir Əli səngi-siyahı ləli-yaqut eyləyən şah,**

**Münəvvər aydı, əhli-ərşi məbhut eyləyən şah.**

**Əlidir Kəbeyi-eşq kuyin aşiqlər təvaf eylər,**

**Cahan ayineyi-ruhin Əli zikriylə saf eylər.**

**Ölümsüzlük məqamın fəth edərlər ölməz aşiqlər,**

**Dönərlər Kəbədən, bəlkə, Əlidən dönməz aşiqlər.**

**Əlisiz naleyi-suzi-məlayik fərşə çatmışdır,**

**Əli meraci-Peyğəmbərdən əvvəl ərşə çatmışdır.**

**-27-**

**Etmiş bu gün ərş üzrə zühur şəmsi imamət,**

**Sanki yerə göydən ələnib nuri səadət.**

**Mövcuddu bu mövludi müşərrəfdə şərafət,**

**Çox ali viladətdir, əzizim, bu viladət.**

**Neyçün ki, bu, mövludi-Qəribəl-Qurəbadır.**

**Mövludun ilə qərq elədin aləmi nura,**

**Kim duydusa bu xoş xəbəri, yetdi sürura.**

**Bu şəmsidimi əbri yanıb gəldi zühura.**

**Ya Həzrəti Musadı gələn vadiyi-Tura,**

**Kim cümlə-cahan şə'şəeyi-nuri-Xudadır.**

**Bəh-bəh, bu nə güldür ki, tutub aləmi ətri,**

**Olduqca nəcibdir həmi hüsnü, həmi ətri.**

**Cənnətdə, gülüm, məst eləyib Adəmi ətri,**

**Min ölmüşü bir dəmdə dirildib dəmi-ətri,**

**Cənnət gülüdür bu, güli-gülzari-Xudadır.**

**Oldur üzü cənnət, ləbi kövsər, qədi Tuba,**

**Oldur fələki-rif'ət-ara şəmsi-müəlla.**

**Oldur çəməni-izzət-ara tər güli-rəna,**

**Oldur sədəfi-xilqət-ara dürri-müsəffa,**

**Nəzzarəsi hal əhlinə nurani səfadır.**

**Bir yal nəzəri-feyz ilə baxsan mənə sarı,**

**Bəlkə, bu nəzərdən könül aram ola barı.**

**Sən xatiri peyğəmbəri-Əkrəm, səni Tarı,**

**Ey şah, nola, bir şad elə lütfünlə Vüqarı,**

**Dərgahına gəlmiş bir üzü qarə gədadır.**

**-28-**

**Can, Əli can, Əli can,**

**Cani-cahan, Əli can.**

**Nəfsi-zəkiyyə tahir,**

**Cazibəsiylə cahir,**

**Dafiəsiylə mahir,**

**Batin içində zahir,**

**Üzdə nihan, Əli can.**

**Eşqin ürəkdə sakin,**

**Qalmadı gizli lakin.**

**İsmi-şərifi-pakin,**

**Zeybu-əzan, Əli can.**

**Ruhumuz öylə kindi,**

**Ən son ümid tək indi,**

**Zikri-mübarəkindi,**

**Dinə təkan, Əli can.**

**Nuri-du-çeşmi-Məryəm,**

**Fəxri-Rəsuli-Əkrəm.**

**Zinəti-külli-aləm,**

**Zikr edirəm dəmadəm,**

**Can, Əli can, Əli can.**

**-29-**

**Bənzərəm badi-xəzan vurmuş həzin yarpaqlara,**

**Hər payız yarpağa çevrilləm, tökülləm bağlara.**

**Şiddəti-fəryadım ilə lərzə sallam dağlara,**

**Az qalam ki, infialimdən keçəm torpaqlara,**

**Ya İmami-əsri, səndən münfəiləm, əfv qıl.**

**Geymişəm rəxti-riyani, sərbəsər gizlənmişəm,**

**Dillənəndə Allahın ismin çəkib dillənmişəm.**

**Ta özümdən baxmışam, ikrah edib iyrənmişəm,**

**Çünki sən görsənməyən yerlərdə çox görsənmişəm,**

**Ya İmami-əsri, səndən münfəiləm, əhv qıl.**

**İntizarından tükəndi taqəti-səbri-şəkib,**

**Harda qaldın ya Əzizi, ya Rəfiqi, ya Həbib.**

**Xəsteyi-zarəm, məni-bimarə tək sənsən təbib,**

**Həzrəti Zəhraya xatir, qıl mənə lütfün nəsib,**

**Ya İmami-əsri, səndən münfəiləm, əfv qıl.**

**Əfv qıl, ey şahi-dəryadil, səfiləm, əfv qıl,**

**Dəmbədəm dərgahi-pakində dəxiləm, əfv qıl.**

**İzzəti-arım gedib əldən, rəziləm, əfv qıl,**

**Etdiyim napak əməllərdən xəciləm, əfv qıl,**

**Ya İmami-əsri, səndən münfəiləm, əfv qıl.**

**Əfv et, ey yari-vəfadar, əhdə çıxdım bivəfa,**

**Xəstədir ruhum, şəfa səndəndir, ey kani-şəfa.**

**Eyləmiş nəfsim məni aludeyi-eyşi-səfa,**

**Ehtirami-Həzrəti-Heydər, bihəqqi-Mustafa,**

**Ya İmami-əsri, səndən münfəiləm, əfv qıl.**

**Olmuşam dünyaya mail, aruzilər kanıyam,**

**Heç kimin qurbanı yox, mən nəfsimin qurbanıyam.**

**Mən günahlar ilə yüklənmiş günah karvanıyam,**

**Nəfsə təsliməm, günah karvanının sarvanıyam,**

**Ya İmami-əsri, səndən münfəiləm, əhv qıl.**

**-30-**

**Odu yoxdan qılan aləmləri var,**

**Ali varlıqdır edilməz inkar.**

**Bir odur hər şeyə qadir varlıq,**

**Gözə görsənməz olan bir varlıq.**

**Qılın ol Qaziyəl-hacatə dua,**

**Ona məxsus-dur hər həmdü-səna.**

**Odu ərbabi-cəlal, Rəbbi cəlil,**

**O kəsin zikrinə məşğuldur dil.**

**Odu dəryayi-kərəm, gənci-səxa,**

**Ona təzim eləyir ərzi-səma.**

**Odu xəllaqi-kəbir, əkbər olan,**

**Cümlə məxluqa odur sərvər olan.**

**O, şəriksizdir, Əhəddir, uludur,**

**Tüm yaranmışlar o şahın quludur.**

**-31-**

**Ya Əli, Mövla Əli, ya Əli, Mövla Əli,**

**La fəta illa Əli, ya Əli, Mövla Əli.**

**Ey ədalət sahibi, ey səxavət sahibi,**

**Babi-şəhri-elm olan sonsuz hikmət sahibi,**

**Natiqi-Quransan, ey bəlağət sahibi.**

**La fəta illa Əli, ya Əli, Mövla Əli!**

**Ey yədullah, mərhəba, sən vəliyyi-həqqsən,**

**Ey Əliyyəl Mürtəza, sən vəliyyi-həqqsən,**

**Sən vəsiyyi-Müstəfa, sən vəliyyi-həqqsən.**

**La fəta illa Əli, ya Əli, Mövla Əli!**

**Zərbeyi-dəsti-qəvi şirim, aslanım mənim,**

**Şahi-mərdanım mənim, Şiri-Yəzdanım mənim,**

**Mən bir aciz nökərin, sən də sultanım mənim.**

**La fəta illa Əli, ya Əli, Mövla Əli!**

**Sən gözəllik bürcünün bir məhi-tabanısan,**

**Gərçi İslam cism isə, sən o cismin canısan,**

**Sən şəfasız kəslərin dərdinin dərmanısan.**

**La fəta illa Əli, ya Əli, Mövla Əli!**

**Ey müqəddəs nur olan, ey mütəhhər nur olan,**

**Ey əxihi-Müstəfa, nur əndər nur olan,**

**Ey günəşdən pürziya, ey sərasər nur olan.**

**La fəta illa Əli, ya Əli, Mövla Əli!**

**Xaki-payin bus edib fəxr qılmış xaklər,**

**Dərk qılmazlar səni sahibi-idraklər,**

**Həqqini etməz qəbul nütfəsi napaklər.**

**La fəta illa Əli, ya Əli, Mövla Əli!**

**-32-**

**Nəfs qudurğan itdi,**

**Ruhu dağıtdı-ditdi.**

**Haqq-ədalət itdi,**

**Taqəti tab bitdi,**

**Səndən aman, Əli can.**

**Dindir Əbu-Turabi,**

**Ver sual, al cavabi.**

**Eşq, vəfa kitabi,**

**Şəhri-ülum babi,**

**Canlı Quran, Əli can.**

**Eylədim ömrü yari,**

**Bax məni-zarə sari.**

**Göstər həmin diyari,**

**Vəslə yetir Vüqari,**

**Rəhm eləyəydi bari,**

**Kaş ki zaman, Əli can.**

**-33-**

**Hüseynin qapısından əliboş gələn olmaz,**

**Bu, bir sirri-Xudadı, bu sirri bilən olmaz.**

**Hüseyn zikrini etmək məriz qəlbə şəfadır,**

**Hüseyn nuri-Xudadır, zəbih həm də vəfadır.**

**Hüseyn gənci-vəfadır, Həsən dürrü-səfadır,**

**Həsənsiz Hüseyn olmaz, Hüseynsiz Həsən olmaz.**

**Hüseyn mahi-səadət, Hüseyn rahi-ədalət,**

**Hüseyn nuri-hidayət, Hüseyn şahi-vilayət.**

**Qopub Kərbü-bəladə qiyamıyla qiyamət,**

**Hüseyn ismini lövhi-cahandan silən olmaz.**

**Şəhidlər nur içindən təcəlla eləyirlər,**

**Yazır ayeyi-Qur'an, olar ruzi yeyirlər.**

**Şəhadətdə həyat var, şəhid sağdı, deyirlər,**

**Bu yol rahi-bəqadı, bu yolda ölən olmaz.**

**-34-**

**Ey qarə gözlü, yolda qalıb aləmin gözü,**

**Göz-göz gəzər gözüm görə nagah həmin gözü.**

**Mahım, niqab içində nihan tut cəmalını,**

**Açma, amandı, dəyməyə naməhrəmin gözü.**

**Ey kəbeyi-müqəddəs içində açan gözün,**

**Ey ruhul-əqdəsin nəfəsi, Məryəmin gözü.**

**Ruhum əsirdi bir mələyin qara xalına,**

**Cənnətdə görməmiş elə gül Adəmin gözü.**

**Kəbə əzayi-Ali-Rəsulçun geyib qara,**

**Ruzi-cəzayadək qurumaz zəmzəmin gözü.**

**Vəsli-nigarə az qala çatmışdıq, ey könül,**

**Qəm gəldi çıxdı, qoymadı çıxsın qəmin gözü.**

**Ey ruhumun baharı, qayıt bağə, seyrə çıx,**

**Hər sübh həsrətinlə dolar şəbnəmin gözü.**

**Ya Rəbb, o qarə gözlü gözəl kimdi, bilmədim,**

**Bir baxdı, saldı sehrinə bir ləhzə min gözü.**

**Bir kimsə, ey Vüqar, bizə dost, həmdəm olmadı,**

**Dostun ziyanı dəydi bizə, həmdəmin gözü.**

**-35-**

**Könlüm quşu min şövq ilə məddahi-Əlidir,**

**Dil tutisinin zikri Əli, şahi Əlidir.**

**Ey xoş o kəsə qiblə bilib vəchi-Əlini,**

**Baş qoyduğu yer paki qədəmgahi-Əlidir.**

**Könlüm iki dünyaya dəyişməz bu səfanı,**

**Gah virdi-zəbanımda Hüseyn, gahi Əlidir.**

**Allaha aparmaz səni hər rah, ey insan,**

**Allaha gedən rah fəqət rahi-Əlidir.**

**Zahir gözü görməz gözə görsənməyən həqqi,**

**Batin gözü ilə görən Allahı Əlidir.**

**Ey dil, dəri-mövlaya qıl hər ləhzə təvəkkül,**

**Saillərin ümmid yeri dərgahi-Əlidir.**

**Qəlbimdəki niyyət sənə vazehdir, İlahi,**

**Hər kəsdən əziz kəs mənə, Vallahi, Əlidir.**

**İmani-yəqin şiyələrin fəxri, vüqarı,**

**Var-dövləti, şanı, şərəfi, cahı Əlidir.**

**-36-**

**Sakini-vadeyi-vəhdətdi Hüseyn ibni Əli,**

**Məktəbi-həqqi-ədalətdi Hüseyn ibni Əli.**

**Qurtuluş vasitəsi, gəşteyi-dəryayi-nicat,**

**Həmi misbahi-hidayətdi Hüseyn ibni Əli.**

**Pərdeyi-zülməti çak eylədi nuri-ədli,**

**Belə xurşidi-səadətdi Hüseyn ibni Əli.**

**Xaliqi-pak tərəfdən bütün aşiqlərinə**

**Mənbəyi-feyzi-kəramətdi Hüseyn ibni Əli.**

**Onun eşqiylə nəva etmədədir bülbüli-dil,**

**Güli-gülzari-imamətdi Hüseyn ibni Əli.**

**Meyveyi-qəlbi-Rəsul, nuri-do-çeşmi-Zəhra,**

**Şərəfi-şahi-vilayətdi Hüseyn ibni Əli.**

**Zairi-qəbri-Hüseyn zairi-həqdir, ey dil,**

**Kəbeyi-əhli-həqiqətdi Hüseyn ibni Əli.**

**Kərbəla faciəsi tarixə qanla yazılıb,**

**Cümlə eşq əhlinə ibrətdi Hüseyn ibni Əli.**

**İbrət alsın cahan heyhat-minəz-zillətdən,**

**Hadiyl-rahi-şərafətdi Hüseyn ibni Əli.**

**Ey Vüqar, zikr elə hər ləhzə o şahın ismin,**

**Şafeyi-ruzi-qiyamətdi Hüseyn ibni Əli.**

**-37-**

**Bitir, ey gül üzlüm, ömrüm bitir intizari-eşqi,**

**Saçır ətri-bağı-cənnət, tuta laləzari-eşqi.**

**Mələyim, behiştə təndir qədəmin dəyən qədəmgah,**

**Qədəmi-mübarəkinlə bəzədin diyari-eşqi.**

**Ananın qədəmlərin öp, ey Əliyə yar olan kəs,**

**Tanıdan halal südündür sənə şəhriyari-eşqi.**

**Əgər ömr edərsə insaf, yetərəm vüsalə bir də,**

**Yenə qəmli göz yaşımla yuyaram məzari-eşqi.**

**Nə görür gözün fənadır, nə var etibar(ı)sızdır,**

**Əsil etibarlılardan götür etibari-eşqi.**

**Ruxi-yari görsə bir kəs, nə behiştə talib olmaz,**

**Nə də versələr götürməz bir ömür bəhari-eşqi.**

**Səni harda görsəm, ey şah, öpərəm qədəmlərindən,**

**Böyüyər kiçilməyiylə Vüqarın vüqari-eşqi.**

**-38-**

**Fəda olum o dilə Mürtəzanı zikr eylər,**

**Əlini zikr eləyən Müstəfanı zikr eylər.**

**Hezari-dil gəlibən köksüm içrə əfqanə,**

**Yanıqlı səslə Şəhi-Kərbəlanı zikr eylər.**

**Dəruni-qəlb ilə Xətmi-Nəbini zikr eləyən,**

**Təmami-silsileyi-ənbiyanı zikr eylər.**

**Göz əşki-pak tökər qətrə-qətrə, hər qətrə**

**Xanımların gözü xeyrən-nisanı zikr eylər.**

**Könül, pənah yerimdir qəriblərin şahı,**

**Qərib könüllər İmami-Rzanı zikr eylər.**

**Təsəlli tapmağı üçün dəmadəm eşq əhli**

**Kitabi-eşqi açıb Həl-Ətanı zikr eylər.**

**O səs ki bəzmi-şərab içrə badələr çıxarar,**

**Şərabi-eşqi içən Müctəbanı zikr eylər.**

**-39-**

**Rövzeyi-kuyin görən meyxanə fikrin çəkməsin,**

**Gül ləbindən zövq alan peymanə fikrin çəkməsin.**

**Kirpiyimlə telbətel yığdım, düzəltdim mubəmu,**

**Zülfi-yarə tapşır, ey yel, şanə fikrin çəkməsin.**

**Cəzbeyi-eşqi-həqiqət cəzb edər aşiqləri,**

**Şəmi-eşqi-Mürtəza pərvanə fikrin çəkməsin.**

**Canı cananə fəda etmişlər izzət tapdılar,**

**Xət çəkən kilki-şərəflə canə, fikrin çəkməsin.**

**Aşiqin ünvanı səhralardı, çöllərdir, gərək,**

**Aşiqi-dərvişi-xislət xanə fikrin çəkməsin.**

**Gül cəmalında deyil bihudə bir cüt qarə xal,**

**Murği-ruhum bərk acanda danə fikrin çəkməsin.**

**-40-**

**Hardan bilə qafil ki, Allaha Vəli kimdi,**

**Surətdə bərabərsiz məna gözəli kimdi.**

**Zülmətlərə nur səpmiş nuri-əzəli kimdi,**

**Ey haqqı danan nakəs, dərk et, gör Əli kimdi.**

**Sən zərrəsən, ey qafil, o, şəmsi-münəvvərdi,**

**Sən bir səgi-bihörmət, o, şiri-Qəzənfərdi.**

**O, həmsəri-Zəhradı, damadı-peyəmbərdi,**

**Ey haqqı danan nakəs, dərk et, gör Əli kimdi.**

**O, rükni-imamətdi, həm şahi-vilayətdi,**

**Mürşidi-hidayətdi, xurşidi-ədalətdi.**

**Həm kani-şücaətdi, həm kani-səxavətdi,**

**Ey haqqı danan nakəs, dərk et, gör Əli kimdi.**

**Ən mötəbər aşiqdi, ən mömini-sadiqdi,**

**Həm nitqidə natiqdi, həm gənci-həqaiqdi.**

**Həm fəxri-xəlaiqdi, hər tərifə layiqdi,**

**Ey haqqı danan nakəs, dərk et, gör Əli kimdi.**

**-41-**

**Hikməti-tohid nədi, öyrət bilək,**

**Bir kərə qoy kuyinə mehman gələk,**

**Feyzə çataq, zövq aparaq, dincələk.**

**Səcdə qılar şəninə yer, göy, fələk,**

**İbrət alar davranışından mələk,**

**Allaha xoşdur ədəbin, ya Əli.**

**Ney kimi hərdən qılıram hey nəva,**

**Lütf eləyib cami şəhi-neynəva,**

**Dərdimə etsən, sən edərsən dəva.**

**Görmə mənə möhnəti-hicrin rəva,**

**Kim uzadar əl mənə səndən səva,**

**Sənsən özündə eləyən ehtiva,**

**Xilqəti-əşya səbəbin, ya Əli.**

**-42-**

**Hüsnündə lətafətli, nitqində bəlağətli,**

**Xülqində nəzakətli, hökmündə ədalətli.**

**Əhdində sədaqətli, qəsdində dəyanətli,**

**Ey haqqı danan nakəs, dərk et, gör Əli kimdi.**

**Aşiq ona yerlər də, göylər də, fələklər də,**

**Aşiq ona insanlar, cinlər də, mələklər də.**

**Aşiq ona bülbüllər, güllər də, çiçəklər də,**

**Ey haqqı danan nakəs, dərk et, gör Əli kimdi.**

**Üstündür o, Adəmdən, Nuhdan, Zəkəriyyadan,**

**Üstündür o, Yunisdən, İdris ilə Yəhyadan.**

**Üstündür o, Salehdən, Musa ilə İsadan,**

**Ey haqqı danan nakəs, dərk et, gör Əli kimdi.**

**Bir ömr Vüqar quldur şahın səri-kuyində,**

**Gərdi-qədəmi-paki cənnət gülü buyində.**

**Zahirdi görən şəxsə haqq cilvəsi ruyində,**

**Ey haqqı danan nakəs, dərk et, gör Əli kimdi.**

**-43-**

**Mürtəzadır dilimin zikri, Nəcəfdir qibləm,**

**Səcdəgahımdı mənim Kərbü-bəla torpağı.**

**Mən sevən yarə nə Şirin ola bilməz bənzər,**

**Nə də Leyla ola bilməz atılan dırnağı.**

**Şaxtalı qış kimidir fəsli-baharım sənsiz,**

**Hicrin, ey laləüzar, sinəmə çəkmiş dağı.**

**Qorxuram, ey pəri, göz dəysin hilal qaşlarına,**

**Cəhd elə, olmaya əksik yaxanın sancağı.**

**Könlümü etdi əsir zülfi-girehgirində,**

**Necə zəncirə vurarlar dəlisov dustağı.**

**Qocalıq qayğıları üstümə ləşkərlə gəlir,**

**Gəncliyim təslim olub qaldırır ağ bayrağı.**

**-44-**

**Ey bağı-imamət gülü, aləm sənə aşiq,**

**Ey ruhu-Əli, canı-Rəsul, fəxri-xəlayiq.**

**Min zülmə əyilməz başa ox, nizə nə layiq,**

**Şahım, o başa tac yaraşar möhtəşəmindən.**

**Ol Kərbü-bəla gör nə fəzilətli məkandı,**

**Ən ali ziyarət yeridi xeyli zamandı.**

**Ya Rəbb, bu nə möcüz, bu nə ərari-nihandı,**

**Öpdükcə könül doymur Hüseynin hərəmindən.**

**Bir yanda Hüseyni yaralı, Zeynəbi yorğun,**

**Bir yanda kiçik qız balalar çöhrəsi solğun,**

**Zəhranın əlif qamətini etdi bu qəm nun,**

**Dərdli analar məlum olar qəddi-xəmindən.**

**Allahdan ümid kəsmə ki, ey şairi-rüsva,**

**Bir məşhur hədis var, buyurur Həzrəti Mövla;**

**Kim Əhli-beyt şəninə bir beyt edə inşa,**

**Cənnətdə bir ev bəxşiş alar möhtərəmindən.**

**-45-**

**Nəsib olmuş ona Rəbbilə görüşmək şərəfi,**

**Odu əsra gecəsi göylərə merac eləyən.**

**Odu Merac gecəsi yeddi göyə şölə saçan,**

**Səri-əflakə ayağın tozunu tac eləyən.**

**Odur ən üstünü, ən əşrəfi külli bəşərin,**

**Kəbədən də odu izzətli, müəzzəm, ali.**

**Mizan acizdi çəkə ondakı şənin qədərin,**

**İki dünyaya dəyər bircə nübuvvət xali.**

**Dərgəhi-pakinə bilsən məni nokər, şahım,**

**Bu kifayətdi cəlalımdı, vüqarımdı mənim.**

**Sənin eşqinlə məni müjdələmiş Allahım,**

**İki dünyada bu eşq dövləti-varımdı mənim.**

**-46-**

**Dəyməz, ay üzlü dilbərim,**

**Gərdi-rəhin bəhasına.**

**Dürrün əcib səfalısı,**

**Gövhərin ən cilalısı.**

**Mah desəm, ucuz çıxar,**

**Şah desəm, ucuz çıxar.**

**Vəsfi-Əlidə söz deyil,**

**Sözlərin ən bahalısı.**

**Ey şəhi-mülki-lafəta,**

**Varlığı sirri-Həl-Əta,**

**Şahların ən şərəflisi,**

**Mərdlərin ən şücalısı.**

**Sübhimi şamə döndərib,**

**Şamımı sübhə döndərib.**

**Şəms kimi ziyalısı,**

**Mah kimi liqalısı.**

**Ey könül, istəsən günün**

**Xoş keçə zövqi-vəsl ilə,**

**Ol səri-kuyi-yaridə**

**İtlərin ən vəfalısı.**

**-47-**

**Səndə cəddin Əli mislində şəhamət vardır,**

**Çün sənin nəfsi-şərifində şərafət vardır.**

**Həm sənin fitrəti-pakında kəramət vardır,**

**Zülmü ləğv etməyə hökmündə ədalət vardır,**

**Ya İmam Mehdi, kərəm qıl, yetiş imdadımıza.**

**Qəm yükündən bükülübdür dəxi billah dizlər,**

**Müntəzirik səhər-axşam, gecələr, gündüzlər.**

**İntizarında dəmadəm səni gözlər, gözlər,**

**Səni aşiqlərin hər cüm'ə ümidlə gözlər,**

**Ya İmam Mehdi, kərəm qıl, yetiş imdadımıza.**

**Hər nəyim var ola, şahım, sənin uğrunda nisar,**

**Dərdi olmazdı əgər vəslinə yetsəydi Vüqar.**

**Dil fərağında kəbab oldu, vüsal arzusu var,**

**Səni bir dəfə görərsəm, məgər aləm dağılar?!...**

**Ya İmam Mehdi, kərəm qıl, yetiş imdadımıza.**

**-48-**

**Fəqət bir hərf iləndir fərqi-suğra,**

**Sənin ismin Əlidir, onda Əla.**

**Əli kimdir, Əli şəmsi-ədalət,**

**Əli kimdir, Əli dəryayi-rəhmət.**

**Əli kimdir, ona canım fədadır,**

**Əli kimdir, Əli Şiri-Xudadır.**

**Əli insanı təqvaləndirəndir,**

**Əli Quranı mənaləndirəndir.**

**Əli Allaha zikrin tul edəndir,**

**Əli nəfsin boğan, məqtul edəndir.**

**Əlinin zatı zati-kibriyadır,**

**Əlinin nəfsi nəfsi-Müstəfadır.**

**Əli qılmışdı nəfsin öylə fani,**

**Olub xoşnud görəndə xüşk ani.**

**Əli kəsmiş fənadan irtibatı,**

**Əlinin düzgün ibrətdir həyatı.**

**-49-**

**Hərə bir yolla bu aləmdə fəqət ad elədi,**

**Kimi viranə olan yerləri abad elədi.**

**Dedi əl tutmaq Əlidən qalıb imdad elədi,**

**Kimi yol saldı, su çəkdirdi, qul azad elədi.**

**Ehtiram ilə kim Allahın adın yad elədi,**

**Onu Allah kərəmi-lütf ilə dilşad elədi.**

**Dərd azalmır ki, azalmır, çoxalır getdikcə,**

**Əyilir qamətim illər dolanıb ötdükcə.**

**İcz ilə dərdimi Allaha bəyan etdikcə,**

**İldırım çaxdı, səma kişnədi, fəryad elədi.**

**Zülməti-cəhlidə nur saçdı nübüvvət günəşi,**

**Həqqidən kəsbi-riya qıldı ədalət günəşi.**

**Ərşi-Yəsribdə zühur etdi səadət günəşi,**

**Nuri-pakıyla cahan əhlinə irşad elədi.**

**Ya Hüseyn, cümlə varından keçən aşiq sənsən,**

**Onu vaxtında nə Məcnun, nə də Fərhad elədi.**

**-50-**

**Kərbəla şahı, vəfa rahı, vəcahət mahı,**

**Həm səadət gəmisi, həm də hidayət şəmidir.**

**Şah nə şah, şahlara şah, zülfü siyah, tələti mah,**

**Gözü tufanlı dəniz, qaşları çönmüş gəmidir.**

**Ey səfa Kəbəsi, xalın həcərül-əsvətdi,**

**Ləbi-ləlindəki sərçeşmə şəfa zəmzəmidir.**

**Sakin oldum neçə min aləm içindən birinə,**

**Neçə min aləm içindən biri eşq aləmidir.**

**Vurmusan dağ, sinəm yarmısan al-lalə kimi,**

**Gözümün yaşları qəm güllərinin şəbnəmidir.**

**Ey Vüqar, sən də bu xoş fürsəti əldən vermə,**

**Seyri-gülzarə gəlib yar, əcəb işrət dəmidir.**

**-51-**

**Köçüb qərib qaranquşum, ümid baharı gözləmir,**

**Fəsillər ardıcıl gəlir, ömür qatarı gözləmir.**

**Yazıbdı Şahı-Kərbəla səadətin kitabını,**

**Şərəfli qan möhürləmiş ədalət inqilabını.**

**Könül, könüllü nuş elə şəhadətin şərabını,**

**Yad eldə od tutub yanır, şəhid məzarı gözləmir.**

**Gözüm yaşıyla eyni su nə seldə yox, nə çayda yox,**

**Cəmali-yar cilvəsi nə gündə yox, nə ayda yox.**

**Lal olsa xoş, kor olsa xoş, görüb danışsa, fayda yox,**

**O dil ki yarı səsləmir, o göz ki yarı gözləmir.**

**Yanımdan, ey ömür, keçib küləklə bahəm ötmüsən,**

**Könül, cəfaya səbr edib, əcəb vüsala yetmisən.**

**Məkani-yara getmisən, yenə nə tufan etmisən,**

**Nə yaxşı bəxtəvər səni ölüm qərarı gözləmir.**

**Ətirli saçlarında kaş bitim bənövşələr kimi,**

**Ölüm bənövşələr kimi, itim bənövşələr kimi.**

**Könül, nə qəmli durmusan yetim bənövşələr kimi,**

**Dur, ey zavallı sərnişin, ümid qatarı gözləmir.**

**Kimin ki, bəxti qarədi, səadət anlamır nədi,**

**Kimin ki, qəlbi daşdısa, məhəbbət anlamır nədi.**

**Təəssüf, hər mələkliqa səadət anlamır nədi,**

**Heç at vəfası saxlamır, it etibarı gözləmir.**

**Əsiri-hicr olanların bəlalı çöldü məskəni,**

**Payız gətirdi həsrətin, saraldı vəsl gülşəni.**

**Əcəldən əvvəl ayrılıq cəfası öldürür məni,**

**Ölüm də gözləyir, heyif, o gül Vüqarı gözləmir.**

**-52-**

**Odu yer, göy sığınar sayəsinə,**

**Ənbiya rəşk aparar payəsinə.**

**Əlidir sirri-səmavatə bələd,**

**Zəbura, İncilə, Tövratə bələd.**

**Həl-Əta surəsi şənində nüzul,**

**Əlidir ruhi-Bətul, cani-Rəsul.**

**Əlinin beyti-Xudadır beşiyi,**

**Mələkut əhlinə vacib keşiyi.**

**Odu məzlumların haqqın qoruyan,**

**Odu zalimlərə meydan oxuyan.**

**Odu hər cəngidə aslanlıq edən,**

**Odu sultanlara sultanlıq edən.**

**Kimdə var zərrə qədər eşqi-Əli,**

**Pakdır mayəsi, düzdür təməli.**

**Odu zikriylə tapar ruh səfa,**

**Odu eşqindən alar feyz ürəfa.**

**Odu varlıq göyünün xurşidi,**

**Odu eşq aləminin mürşidi.**

**Odu peyğəmbəri-dinin canı,**

**Elm dəryası, fəzilət kanı.**

**Gah bir qətrədi, dərya boyda,**

**Gah bir nöqtədi, dünya boyda.**

**Tut, Vüqar, daməni-şahənşahi, Tapasan, bəlkə, hidayət rahi.**

**-53-**

**Atdı kim zülm ilə şahzadə Əli-Əkbərə ox,**

**Elə bilsin ki, atıb sineyi-Peyğəmbərə ox.**

**O Hüseyndir ki, behişt hüsnünə həsrət çəkmiş.**

**Zülmə baş əyməyənin başı müsibət çəkmiş.**

**Dəydiyiyçün bir ömür, bəlkə, xəcalət çəkmiş,**

**Nizə üstə başı Quran oxuyan sərvərə ox.**

**Yox Hüseyntək biri min bir qəmin etsin tabın,**

**Onun əshabı şərafətlisidir əshabın.**

**Ona Cəbrayıl açar həşti-behiştin babın,**

**Nə rəva sinəsi üstündə aça pəncərə ox.**

**Vay həmin kəslərə zalim kimi şöhrətlənmiş,**

**Xoş həmən kəslərə insan kimi qiymətlənmiş.**

**Vəhşi xislət qaniçən Hərmələ lənətlənmiş,**

**Əli gəldi, ata əl boyda Əli-Əsğərə ox.**

**Kim içər cami-bəla, qanla alar dəstəmazın,**

**Bəlkə, ondan sonra canan qəbul eylər namazın.**

**Uzdüyüyçün südəmər nazənin ahu boğazın,**

**Dil açıb yalvarıb, əfv istədi min bir kərə ox.**

**Neynəvadən ucalıb göylərə fəryadi-nəva,**

**Ney nəva etdiyi yerdən tapılar dərdə dəva.**

**Bu nə insafi-mürüvvətdi, Xudaya, nə rəva,**

**Gur yağıştək yağa Peyğəmbər öpən gözlərə ox.**

**-54-**

**Gəldi əyyami-məhərrəm gözlər ağlar, ağlaram,**

**Həm könül qəmdən yanar, həm gözlər ağlar, ağlaram.**

**Mey bəla, məclis bəla, saqi bəla, sağər bəla,**

**Kərbəla sultanının ətrafın almış hər bəla.**

**Aşiq üçün hər gün Aşuradır, hər yer Kərbəla,**

**Kərbəladan kim vurar dəm gözlər ağlar, ağlaram.**

**Vəhşi xislətdir ox atmaq itrəti-Peyğəmbərə,**

**Abbasın gül peykərində oxlar açmış pəncərə.**

**Vay Hüseynim, vay deyər çaylar, dənizlər, dağ, dərə,**

**Ağlar on səkkiz min aləm, gözlər ağlar, ağlaram.**

**Sanmayın odlu cəhənnəm qorxusundan ağlaram,**

**Bir behişt üzlü gülə illərdi matəm saxlaram.**

**Ağ günə çıxmaq-çün ol şahın qarasın bağlaram,**

**Bilmərəm cənnət, cəhənnəm gözlər ağlar, ağlaram...**

**-55-**

**Özün dərk eyləyən dərk eylər anı,**

**Özündən bixəbər tərk eylər anı.**

**Bilər zər qədrini, sözsüz ki, zərgər,**

**Nə bilsin zəfəranın qiymətin xər.**

**Nə gül ətrindən olmuş məst ürəklər,**

**Nə gül dövründə rəngarəng ləçəklər.**

**Nə gül, bir gül ki, heç yoxdur misali,**

**Nə gül, bir bərqi min cənnətdən ali.**

**Əlidir övliyalar övliyası,**

**Əlidir əhli-eşqin rəhnuması.**

**Əlini zikr edən dillər var olsun,**

**Əlini sevməyən kəslər xar olsun.**

**Əli ol kəsdi ki, fövqəlbəşərdir,**

**Əliyə dost olanlar bəxtəvərdir.**

**-56-**

**Şeyda könül unutmur ol yari-bavəfanı,**

**Eşq əhli, həmdulillah, ehsan bilir cəfanı.**

**Binti-Rəsuli-Əkrəm, nuri-du-çeşmi-Məryəm,**

**Zahraya zülm edənlər incitdi Mustəfanı.**

**Bir yarə ruhum aşiq hüsnündə nuri-xaliq,**

**Lütfüylə feyziyab ol, zikriylə tap səfanı.**

**Gizli xazinələr var ümmül-kitab içində,**

**Aç sirri-Hal-Ətanı, təfsiri-qulkəfanı.**

**Sənsən Uyubi-Səttar, Sənsən Qafuru-Qəffar,**

**Səndən dilər mərizan min dərdə bir şəfanı.**

**-57-**

**Ümid ilən döyərəm Şahi-Kərbəla qapısın,**

**Cahanda rəsmidi şahın döyər gəda qapısın.**

**Gələr ümidi-şərafətlə cümlə aşiqlər,**

**Öpüb təbərrük edərlər İmam Rza qapısın.**

**Cəhənnəmin qapısın bağlayar Xuda üzünə,**

**Ziyarət eylib açar kim ki, Mustafa qapısın.**

**Cahanda kim ki, Hüseyntək hidayət aşiqidir,**

**Kəsər qılınc başını, kəsdirər bəla qapısın.**

**Hicab əleyhinə qalxanların əlin sındır,**

**Mədəd, İlahi ki, sındırdılar həya qapısın.**

**Töküb gözüm yaşını tövbə eylədim, çünki,**

**Yağış yağan zaman Allah, açar səma qapısın.**

**İlahi, bir də nəsib et mənə Nəcəf şəhrin,**

**Gedim ziyarət edim Şahi-Mürtəza qapısın.**

**Vüqar, Rəhimidi-Rəhmandı, Xaliqi-Yekta,**

**Günahı tərk elə, tövbəylə aç Xuda qapısın.**

**-58-**

**Üzün gülür, gülər üzlüm, üzündə güllər açıb,**

**Gözün gülür, qara gözlüm, gözündə güllər açıb.**

**Dizin-dizin, könül, ol vadeyi məhəbbətdə**

**Sürünmüsən o qədər ki, dizində güllər açıb.**

**Xəlil üçün odu döndərdi Rəbbi gülzarə,**

**Təəccüb eylədi Nəmrud, közündə güllər açıb.**

**O Kərbəladı ki, torpağı ətri-qəm qoxuyur,**

**Çölündə qanlar axıbdır, düzündə güllər açıb.**

**Vərəqdi hər açılan gül kitabi-hüsnündən,**

**Nə qədri sirri-nihani, özündə güllər açıb.**

**Gəl, ey gül üzlülərin şahı, yolların bəzənib,**

**Ayağın öpməyə xatir, izində güllər açıb.**

**O lalə üzlü qış ilhamına bahar gətirib,**

**Vüqar, səbəb budu, sözsüz sözündə güllər açıb...**

**-59-**

**Adını zikr eliyən-inci yığar dürcü dəhanə,**

**Ona nökərlik edər-şahlıq edən cümlə-cəhanə.**

**Bir adı Şahi Vilayət, biri Möminlər Əmiri,**

**Əzəmət kani kəramət piri, Möminlər Əmiri,**

**Kişilər Şahi Xudanın şiri, Möminlər Əmiri,**

**Şərəfi-zümreyi Adəm, Ağamız Həzrət Əlidi!**

**Səbəbi xilqəti aləm, ağamız Həzrət Əlidi!**

**Elə bir zati-şərif ki, eləmiş vəsfin İlahi,**

**Onu tərif eləməyçün, nə söz ustadı, nə dahi?**

**Öpəsən gah ayağından, tutasan gah ətəyindən,**

**Tutan ol Şah ətəyindən, tutar Allah ətəyindən...**

**Doğa bilməz ki, Əlidən gözəlin madəre-dünya,**

**Bu səbəbdən də qısırdır, o zamandan bəri dünya,**

**Nə gözəl "Ya Əli" zikrin deyə gündüz-gecə insan,**

**Belə öz qəlbi mərizin eliyər m(ü)alicə insan,**

**Bəşərun kəyfə bəşərdir, yəni insan necə insan?!...**

**Eləsəydi üzünün cilvəsi Adəmdə təcəlli,**

**Ona razıydi sücud etməyə İblis iki əlli,**

**İki surət gözə görsənsə də mənadə biriydi,**

**Ölən insanlıq olarnan ayaq üstəydi, diriydi.**

**Buyurub Xətmi-Rəsul, ruh necə vəhdətdədi tənnən?**

**Elə taəm qılıb Allah Səni Mənnən, Məni Sənnən..**

**Əli Mənnən, Mən Əlidən, qanı Mənnən, canı mənnən...**

**Biri Adəm yaranandan qabaq Allaha Nəbiydi,**

**Biri əvvəl səbəbiydi, biri axır səbəbiydi..**

**Biri zahirdə camaldı, biri batində kamaldı,**

**Qələmim xiclət içində, dilim heyrət kimi laldı,**

**Biri eynilə günəşdir, biri 14 gecəlik ay!**

**Yetərəy bəxtəvər aşiq, iksindən gələ bir pay...**

**-60-**

**Sən münəzzəhsən, bütün cürmi-xətadan xalisən,**

**Sən böyüklərdən böyüksən, alilərdən alisən.**

**Aləmin hər türlü sirrindən tamamən halisən,**

**Həm əzəlsən, həm qədimsən, valilərdən valisən.**

**Zatın öz zatındadır, ey nuridən mövcud olan,**

**Ey ibadət əhlinə ən mötəbər məbud olan.**

**Qadiri-mütləqdir ismin, vəsfə sığmaz qüdrətin,**

**Söndürər qəhr atəşin dərya-bə-dərya rəhmətin.**

**Ey olan munimi-pak, bitməz, tükənməz nemətin,**

**Görsə hüsnün etiraf eylərdi heyrət heyrətin.**

**Ey müsəvviri-cahan, ey məxluqatın xaliqi,**

**Ərşü fərşin, şəmsü mahın, yeddi qatın xaliqi.**

**Hökmün ilə seyr edər səyyarələr xurşid, mah,**

**Od və su, torpaq-hava, həmçin səfid ilə siyah.**

**İltifatınla olar zülmət gecə, aydın sabah,**

**Əlqərəz, cümlə-cahan hökmündədir, ey padişah.**

**Ey olan xəllaqi-aləm, ey olan zatı-qədim,**

**Lütfünün möhtacıyıq, sənsən siratəl-müstəqim.**

**Kürsiyi-əla yerin, təxti-büsatın möhtəşəm,**

**Zül-cəlalu zül Kərimsən, möhtərəmsən möhtərəm.**

**İlk məxluq aləmi-nasuta qoyduqdan qədəm,**

**İsmi-pakın zikr edər cümlə təbiət dəmbədəm.**

**Cansız əşyalar belə zikrində təxir eyləməz,**

**Ruhu ölmüş kəslərə, əfsus ki, təsir eyləməz.**

**-61-**

**Anamız Həzrəti Zəhradan əmanətdir hicab,**

**İki dünyada hicab əhlinə zinətdir hicab.**

**Hicab hər mömininənin ismətidir-iffətidir,**

**Adıdır-namusudur-mənliyidir-qeyrətidir,**

**İzzidir-şənidir-ülviyyətidir-şövkətidir,**

**Elə fərz eylə xanım güldü, təravətdir hicab,**

**Saxlayın məndən əmanət dedi Zəhra hicabı,**

**Kərbəlada qorudu Zeynəbi-Kübra hicabı,**

**İndi isə qalıb əllərdə Rüqəyya hicabı,**

**Ya şərafətsiz ömürdür, ya şəhadətdir hicab.**

**Zalima, Allaha bax, Tanrıya bax, irşad ol,**

**Əmri-Xəllaqə itaətdə bulun, nun-qad ol,**

**Ey deyən kəs qızına, taxma hicab, azad ol,**

**Sən biqeyrət nə bilirsən ki, nə qeyrətdir hicab.**

**İstəsən Tanrı yanında olasan şəni əziz,**

**Pərdeyi-isməti cəhd eyləginən saxla təmiz,**

**Ta bu əxlaq ilə ol Həzrəti Zəhraya kəniz,**

**Ondan al dərsi-həya, gör nə şərafətdir hicab.**

**Keçdi Zeynəb o zaman yeddi igid qardaşdan,**

**Gəldi fəryadi-nəva səsləri dağdan-daşdan,**

**Yenə də açmadı, amma ki hicabın başdan,**

**Ey bacım, bax yola gəl, rahi-hidayətdir hicab,**

**Olma yırtılmış həya pərdəsi, şeytan nökəri,**

**Keç həya məktəbin, ol bəxtəvərin-bəxtəvəri,**

**Çün, hicab əhlinin üstündədir Həqqin nəzəri,**

**Həm bu dünyada, həm üqbadə şərafətdir hicab.**

**Anamız Həzrəti Zəhradan əmanətdir hicab,**

**İki dünyada hicab əhlinə zinətdir hicab.**

**-62-**

**Əlidir Adəmin ən ali, mübarək xələfi!**

**Onu danmaq kişiliydən deyil Allah tərəfi!**

**Əli aşiqlərinin yerdə deyil tək şərəfi,**

**Mələkut əhli də heyran Əli aşiqlərinə!**

# SON